*1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür*

# Uşaqlar – dünyanın ən böyük səadəti









***Cəmiyyətin, millətin, ümumən bəşəriyyətin davamçısı, dövlətin perspektiv resursu və intellektual kapitalı uşaqlardır. Hər ölkənin və xalqın gələcəyi uşaqlara verilən dəyər və tərbiyədən asılıdır. 1990-cı illərdə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində müharibə taleyi yaşayan Birinci Qarabağ müharibəsi dövrünün uşaqları yurd həsrəti ilə böyüdülər. Vətənpərvər gənclər 2020-ci ildə dünyanın hərb tarixində yeni səhifələr yazdılar, Azərbaycanın ərazi bütövlüyünü təmin etdilər. Tariximizə, milli köklərimizə bağlı, ləyaqətli vətəndaş kimi formalaşmış bugünkü gənclik Azərbaycan adına yeni reallıq yaratdı, BMT Təhlükəsizlik Şurasının illərdir kağız üzərində qalan qətnamələrini icra etməklə, beynəlxalq hüququ, o cümlədən, köçkün həyatı yaşayan azərbaycanlı uşaqların hüquqlarını bərpa etdilər.***









Hər bir insan doğulduğu andan etibarən müəyyən hüquq və vəzifələrə malik olur. Uşaqlar ailənin və cəmiyyətin tərkibində olduğu kimi, uşaq hüquqları da insan hüquqlarının bir hissəsidir.

Ötən əsrdə uşağa bir fərd olaraq verilən dəyərin artması, uşaqların inkişaf ehtiyaclarına görə bəzi xüsusi hüquqlara sahib olmaları, onların təhlükəsizliyinin təminatı zərurətini yaratdı. Uşaq hüquqlarının inkişafını anlamaq üçün müxtəlif cəmiyyətlərin uşaqlara olan tarixi münasibətinə, onlara verdiyi dəyərə nəzər salaq.

Uşaq konsepsiyası xalqların sosial-mədəni köklərinə dayanır. Bu aspektdən, tarixin müxtəlif dövrlərində uşaqların fərqli coğrafiyalardakı vəziyyəti fərqli olur. Bunlar qanuni qaydalara daxil edilmiş faktlardır. Qədim Yunanstanda uşaqlar yeddi yaşından məktəbə gedirdi. Platon əsərlərində qeyd edir ki, altı yaşından sonra oğlan və qız uşaqlarına dərs verirdi. Orxon-Yenisey abidələrinə istinadən deyə bilərik ki, qədim türklərdə uşaqlara çox yüksək qiymət verilirdi. Ümumiyyətlə, türkdilli toplumlarda ana və ataya hörmət gözlənilir, xüsusilə ata övlad qarşısında məsuliyyət daşıyırdı. Həmin ənənələri türk xalqları müasir dövrdə də yaşatmaqdadır.

Tarixən xalqımızın alilə dəyərlərində övlada məhəbbət, qayğı xüsusi önəm daşıyıb, uşaq ailənin, ümumən cəmiyyətin sərvəti kimi dəyərləndirilib. “Uşaq evin yaraşığıdır”, “Bala baldan şirindir”, “Ana bala ucundan özünü oda yaxar” kimi atalar sözlərində, folklor nümunələrində xalqımızın övlada münasibəti, müstəsna sevgisi əks olunur. Azərbaycan ailəsində övlada olan sevgi dünyanın heç bir xalqı ilə müqayisə olunmayacaq dərəcədə yüksəkdir. Qeyd edək ki, islamda uşaqlar Allahın əmanəti hesab olunur, onları, xüsusilə kasıb və yetim uşaqları qorumaq buyurulur.

Kapitalizm ictimai-siyasi formasiyasında uşaq iqtisadi cəhətdən səmərəli idi. Belə cəmiyyətlərdə uşaq qanunsuz olaraq istehsala cəlb edilirdi. Zamanla cəmiyyətlərin ədalət hissinin inkişafı ilə birlikdə uşağa olan münasibət dəyişdi.

Müasir uşaq anlayışının Qərb cəmiyyətlərində ortaya çıxması XVII əsrdən başlayaraq bir sıra dəyişikliklərin nəticəsi kimi xarakterizə edilir. Uşaqların müdafiəsi üçün təşkilat yaradılması fikri 1894-cü ildə Jules de Jeune tərəfindən irəli sürülmüş və bu məqsədlə Parisdə xüsusi bir təşkilat yaradılmışdır. Birinci Dünya müharibəsindən sonra inkişaf etmiş müasir hüquq sistemi uşağın qəyyumluğunu qorumaq, ona sığınacaq, təhsil vermək və maddi və mənəvi rifahı təmin etmək məqsədi daşıyırdı.

XX əsrin əvvəllərində, müxtəlif ölkələrdə uşaqların böyüklərdən fərqli hüquqlara sahib olduqları və bu səbəbdən, bu hüquqların ayrı-ayrılıqda tanınması ilə əlaqədar müəyyən hərəkatlar ortaya çıxmağa başladı. Polşalı yəhudi pedaqoq Yanuş Korçak 1919-cu ildə nəşr olunan “Bir uşağı necə sevməli ” kitabında uşaq hüquqlarından, hüquq bərabərliyindən bəhs edib. 1917-ci ildə Oktyabr inqilabından sonra Proletkult təşkilatının Moskva şöbəsi Uşaq Hüquqları Bəyannaməsini hazırlayıb. 1924-cü ildə Millətlər Birliyi tərəfindən qəbul edilmiş “Cenevrə Uşaq Hüquqları” Bəyannaməsi uşaq hüquqlarına dair ilk rəsmi sənəddir. 1923-cü ildə Eqlantine Gebbin hazırladığı və 1924-cü ildə Millətlər Birliyi tərəfindən qəbul edilən bu Bəyannamə Birləşmiş Millətlər Təşkilatı təsis edildiyi zaman qəbul edilmişdir. Onu da qeyd edək ki, Türkiyədə1929-cu il aprelin 23-də ilk dəfə Milli Suverenlik və Uşaq Bayramı təşkil olunub. Həmin tarixdə dörd min uşaq Türk Böyük Millət Məclisindən hüquqlarını tələb edib.

Dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da qeyd edilən Uşaqların Beynəlxalq Müdafiəsi Günü 1950-ci il iyunun 1-də BMT Baş Assambleyası tərəfindən təsis edilib. Həmin gün təşkil olunan “Qadınların Beynəlxalq Konfransı”nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilib. Bu bayramla yanaşı BMT -nin Baş Assambleyası tərəfindən1956-cı ildən 20 noyabr tarixində Ümumdünya Uşaqlar Günü də qeyd olunur.

Bu gün uşaq hüquqları ilə əlaqəli beynəlxalq sənəd, Birləşmiş Millətlər Təşkilatı tərəfindən 20 Noyabr 1989-cu ildə qəbul edilmiş və 193 üzv ölkə tərəfindən təsdiqlənmiş Uşaq Hüquqları Konvensiyasıdır. Amerika Birləşmiş Ştatları və Somali xaricində ən çox ölkə tərəfindən təsdiqlənmiş insan hüquqları sənədidir. Bu konvensiya uşaqların hüquqlarını təmin edən birinci universal kodeksdir. O, uşaq hüquqlarına dair bütün məsələləri bir sənəddə cəmləşdirib. 54 maddədən ibarət olan konvensiyada uşaqların bütün hüquqlarını – yaşamaq, müdafiə, iştirak və inkişaf hüquqlarını əhatə edir. Sənəddə uşaqların iqtisadi, sosial, mədəni və hətta siyasi hüquqlara malik olmasını vurğulanır.

UNICEF-in hazırladığı hesabata görə, İsveç, Finlandiya və Ukrayna başda olmaqla, bir sıra ölkə uşaq hüquqlarını qorumaq üçün şikayət qurumları yaradıb. Əsas vəzifələri təhlükə altında olan uşaqların təhlükəsizliyini təmin etmək, uşaqları cəmiyyətdə söz sahibi olmağa təşviq etmək və təhsil, səhiyyə və mədəniyyət kimi məsələlər əsasında uşaqların böyüdükləri şəraiti izləmək olan ombudsman fəaliyyət göstərir. Qanun çərçivəsində Ukrayna dünyada bu orqanı təyin edən ilk ölkədir. Uşaq hüquqlarının pozulmasının qiymətləndirilməsi üçün ilk şikayət orqanı 1981-ci ildə Norveçdə Barneombudet adı ilə qurulub.

Uşaqların döyüş sahələrində əsgər olaraq istifadə edilməsi Beynəlxalq Cinayət Məhkəməsi tərəfindən hərbi cinayət kimi təyin olunur. Buna baxmayaraq, uşaqlar Burma, Burundi, Fildişi Sahili, Konqo Demokratik Respublikası, Somali, Sudan, Çad, Filippin, Kolumbiya, Nepal, Şri-Lanka, Uqanda, Əfqanıstan, Angola, Gine-Bisau, Liberiya, Mozambik kimi ölkələrdə əsgərdirlər.

Beynəlxalq Əmək Təşkilatının məlumatlarına görə, dünyada 200 milyondan çox uşaq işçisi var. Bu ölkələr arasında Hindistan liderdir. Uşaq işçiləri üçün ən təhlükəli sahələrə kənd təsərrüfatı, inşaat və mədənçilik daxildir. Beynəlxalq Əmək Təşkilatı, 5 ilə 14 yaş arasındakı 132 milyon uşağın kənd təsərrüfatı sektorunda çalışmaq məcburiyyətində qaldıqlarına və bu səbəbdən təhsil və sağlamlıq imkanlarından məhrum olduqlarına diqqət çəkir.

Ölkəmizdə uşaqların müdafiəsi və inkişafı, onların hüquqlarının qorunması dövlətin sosial siyasətində mühüm yer tutur. Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin başlıca prinsipləri uşaqların keyfiyyətli təhsil və müasir tələblərə cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi dəyərlərə əsaslanan sosial mühitdə böyüməsi üçün zəruri şərait yaradılması, onların şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasıdır. Uşaqların sağlam böyüməsi, onların baxımsızlığı hallarının aradan qaldırılması, valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud, vaxtilə məcburi köçkün ailələrdən olan uşaqların sosial müdafiəsinin təmin edilməsi prinsipləri dövlətin qəbul etdiyi sosialyönümlü proqramlarda xüsusi yer tutur.

Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyasına qoşularaq, uşaqlarla bağlı qanunvericiliyi beynəlxalq normalara uyğun təkmilləşdirmişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizin qoşulduğu beynəlxalq müqavilə uşaq hüquqlarının müdafiəsi sahəsində milli qanunvericilikdə təkmilləşdirmə işinin aparılmasına, yeni mexanizmlərin yaradılmasına və uşaqlara qarşı zorakılıqla mübarizəyə ünvanlanan ümumi prinsiplərin formalaşdırılmasına təkan vermişdir.





1998-ci il mayın 19-da “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Bu qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir. Qeyd edim ki, “Uşaq hüquqları haqqında qanun”da uşaqların hüquq bərabərliyi, yaşamaq və inkişaf etmək hüququ, həyat və sağlmalığının mühafizəsi hüququ, ad və vətəndaşlıq almaq hüququ, tərbiyə almaq hüququ, azadlıq və şəxsi toxunulmazlıq hüququ, zəruri maddi təminat hüququ, vicdan–fikir və söz azadlığı, məlumat azadlığı, ailədə yaşamaq hüququ, yaşına, səhhətinə, ümumitəhsil və peşə hazırıığı səviyyəsinə uyğun olaraq əmək hüququ, istirahət hüququ, ictimai təşkilatlarda birləşmək hüququ, şərəf və ləyaqətinin müdafiəsi hüququ təsbit olunub.

Bundan əlavə, 1999-cu ildə “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, 2002-ci ildə “Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, 2003-cü ildə “Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında”, 2005-ci ildə “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”, 2018-ci ildə “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktlar qəbul edilmişdir. Bu normativ hüquqi aktlar uşaq problemlərinin həllində mühüm rol oynayır.

Prezident İlham Əliyevin Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə 22 dekabr 2008-ci il tarixli sərəncamı ilə 2009-cu il "Uşaq ili" elan olunmuşdur.

Uşaqların rifahının yüksəlməsi istiqamətində fəaliyyətin daha da gücləndirilməsini məqsədilə təsdiq olunmuş “Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası” ölkəmizdə uşaq hüquqları sahəsində mövcud hüquqi bazanı təkmilləşdirməklə uşaq siyasətinin əsas hədəflərini müəyyən edir. Strategiyanın əsas məqsədi Azərbaycan Respublikasının ərazisində bütün uşaqlar üçün bərabər imkanlar yaratmaqdan, onların maraqlarını qorumaqdan, dövlət qayğısına ehtiyacı olan uşaqların hüquqlarını daha səmərəli müdafiə etməkdən və onlar üçün müasir tələblərə uyğun sosial dəstək xidmətlərini təmin etməkdən ibarətdir. Uşaqları müdafiənin işlək mexanizminin yaradılması, erkən uşaqlıq dövründə onların inkişafına dövlət dəstəyi göstərilməsi, çətin həyat şəraitində olan uşaqların müdafiəsi, uşaqların sağlam mühitdə böyüməsi və tərbiyəsi, uşaqlarla bağlı həyata keçirilən tədbirlərin monitorinqi və qiymətləndirilməsi sisteminin inkişafı kimi əsas istiqamətləri Strategiyanın əsas istiqamətləridir.

Uşaq hüquqları müdafiəsi sahəsində aparılan işlərdən danışarkən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəalyyətini xüsusi olaraq vurğulamaq lazımdır. "Uşaqlar Azərbaycanın sabahıdır, gəlin onların problemlərinə biganə qalmayaq" devizini irəli sürən Mehriban xanımın rəhbərliyi altında Heydər Əliyev Fondu uşaqların hərtərəfli inkişafı, onların müasir tələblərə uyğun təhsil və tibbi xidmətlərlə təmin olunması, uşaq problemlərinin həlli istiqamətində mühüm layihələr həyata keçirir. "Yeniləşən Azərbaycana yeni məktəb" çərçivəsində yüzlərlə təhsil ocaqları tikilib istifadəyə verilmişdir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" və "Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidənqurulması" layihəsi çərçivəsində körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunmuşdur. Uşaq evləri və internat yetirmələrinin sosial-psixoloji reabilitasiyasına imkan yaradacaq resurs mərkəzinin yaradılması, "Kor və zəif görən uşaqlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsi", "Təhsilə dəstək" və "İnklüziv təhsil" proqramlarının həyata keçirilməsi Fondun xidmətləri sırasında xüsusi vurğulanmalıdır. Fondun prezidenti kimsəsiz və yetim uşaqlara, fiziki sağlamlığında problemi olanlara xüsusi yardım göstərir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri cəmiyyətin diqqətinin uşaqların sağlamlığına yönəldilməsi baxımından müstəsna əhəmiyyət daşıyır.

Heydər Əliyev Fondu ölkə xaricində, o cümlədən, Rusiya və Gürcüstanda yaşayan azərbaycanlı şagirdlər üçün də lazımi tədbirlər həyata keçirir. Respublikamızın Niderland Krallığındakı səfirliyində bu ölkədə fəaliyyət göstərən Azərbaycan məktəblərinə Heydər Əliyev Fondu tərəfindən hazırlanmış hədiyyələrin təqdimat mərasimi də bu qəbildən olan layihələrdəndir. Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən hər bir layihənin əsasında Azərbaycanın gələcəyi olan uşaqların gələcəyini təmin etmək və sağlam ruhlu, düşüncəli uşaqları yetişdirməkdir.



Hazırda ölkəmizdə uşaq problemlərinin həllinə yönəlmiş onlarla Dövlət Proqramı həyata keçirilməkdədir. Uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət sahəsində aparılan yeni hüquqi islahatlar dövlət uşaq müəssisələrinin monitorinqinin aparılmasına, bu sahədə çatışmazlıqların müəyyən edilməsinə imkan yaradır. Həyata keçirilən tədbirlər ana və uşaqların sağlamlığının qorunması ilə bağlı tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsini təmin edir. Erkən yaşda uşağın sağlam qidalanmasının təmin edilməsi üçün ana südü ilə qidalanmanın təbliği, uşaq qidaları və uşaq məhsullarının təhlükəsizliyinə və keyfiyyətinə ciddi nəzarətin həyata keçirilməsi dövlətin nəzarətindədir.

Dövlət statistikasına və hesabatına əsaslanaraq qeyd edək ki, son iki ildə ölkəmizdə anemiya diaqnozu qoyulmuş xəstə uşaqların sayında artım müşahidə edilir. Yod və A vitamini çatışmazlığı olan uşaqların sayında azalma müşahidə edilsə də, boyatmanın ləngiməsi və zəifliyi olan uşaqların sayında cüzi artım izlənilir. Bu baxımdan aztəminatlı ailələrin uşaqlarının müayinəsinə və müalicəsinə dövlət dəstəyinin gücləndirilməsi, aztəminatlı ailələrdən olan qadınların qadın məsləhətxanalarının xidmətlərindən istifadə imkanlarının artırılması önəmlidir.

Yetkinlik yaşına çatmayanların hüquq pozuntularının profilaktikası üzrə ən vacib məsələlərdən biri yetkinlik yaşına çatmayanların hüquqlarının ədalət mühakiməsi prosesində tam təmin edilməsidir. Bu sahədə Azərbaycan Respublikasının qanunvericiliyi beynəlxalq normalara əsas etibarilə uyğun gəlir. Uşaq əməyinin qarşısının alınması istiqamətində ölkədə mütəmadi tədbirlər görülür. Uşaqların əməyə cəlb edilməsi hallarının aşkarlanması istiqamətində nəzarət tədbirlərinin gücləndirilir.

Uşaqların fiziki inkişafı və sağlam həyat tərzi keçirmələri üçün istirahətin, asudə vaxtın düzgün və səmərəli təşkili xüsusi əhəmiyyət kəsb edir. Son illərin statistikası göstərir ki, pandemiya dönəmində uşaqların mədəni-estetik inkişafı, asudə vaxtının düzgün və səmərəli təşkilinə də mənfi təsir edib. Bu sahədə dövlət və qeyri-dövlət sektorunun aktiv fəaliyyəti üçün mexanizmlərin işlənib hazırlanmasına ehtiyac vardır.

Ölkəmizdə müvafiq icra hakimiyyəti orqanları, müəssisələr idarələr və təşkilatlar sosial infrastruktur obyektlərinin, mənzillərin, ictimai, istehsal binalarının və qurğularının əlillər və sağlamlıq imkanları məhdud uşaqlara maniəsiz müyəssər olması, ictimai nəqliyyatdan və nəqliyyat kommunikasiyalarından, rabitə və informasiya vasitələrindən, istirahət və asudə vaxt yerlərindən onların sərbəst istifadə etməsi üçün lazımı şəraitlə təmin edilməsi nəzərdə tutulan məsələlərdir.

Qlobalaşmanın gətirdiyi mənfi təsirlərdən uşaqların qorunması həm ailələrin, həm dövlətin məsuliyyətini artırır. Dövlət başçısının qeyd etdiyi kimi, gənclərin həm ailələrdə, həm məktəblərdə milli ruhda tərbiyə alması xüsusi əhəmiyyət daşıyır. Xüsusilə indiki şəraitdə ki, dünyada müxtəlif proseslər gedir, qloballaşma adı ilə faktiki olaraq eyniləşmə siyasəti aparılır, kütləvi informasiya vasitələri ilə müxtəlif təxribatlar ortaya atılır. Prezident İlham Əliyevin bu fikirləri uşaq hüquqlarının müdafiəsi sahəsində yeni prioritetləri müəyyən edir.

Hazırda ölkə əhalisinin iki milyon altı yüz mindən çoxunu uşaqlar təşkil edir. Azərbaycanda 300 min qaçqın və məcburi köçkün uşağın olması uşaq problemlərinin həllinə mənfi təsir göstərən amillərdəndir. Təəssüf ki, qaçqın və məcburi köçkün uşaqlarının illərdən bəri doğma torpaqlarda, azad, sərbəst yaşamaq hüququnu təmin etmək mümkün olmurdu. Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində Ermənistanın işğal faktına son qoydu. Köçkün uşaqların hüquqlarının bərpası, işğaldan azad edilmiş doğma torpaqlarına qaytarılması və bu istiqamətdə bərpa və quruculuq işlərinin aparılması dövlət siyasətinin əsas prioritetlərindəndir.

Ürək ağrısı ilə xatırladım ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü dövründə işğalçı dövlətin silahlı qüvvələri tərəfindən 200-dən çox azərbaycanlı uşaq öldürülmüş, yüzlərlə uşaq yaralanmışdır. 61 uşaq itkin düşmüş, 27 uşaq əsrlikdə böyümüş və hələ də əsirlikdədir. 1988-1989-cu illərdə Ermənistanda yaşayan azərbaycanlının qovulması nəticəsində də qətlə yetirilən 216 azərbaycanlının 23-ü uşaq olub. 1992-ci il fevralın 26-da baş vermiş Xocalı soyqırımı nəticəsində vəhşicəsinə işgəncələrlə qətlə yetirilən 613 nəfərdən 63-ü azyaşlı uşaqlar idi.

1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirilməsi faktları qeydə alınıb. Ötən dövrdə 32 uşaq erməni terrorunun qurbanı olub.

II Qarabağ müharibəsinin gedişində Ermənistan mülki əhalinin yaşadığı əraziləri – yaşayış binalarını, kəndləri, evləri, təsərrüfat sahələrini, mülki əhalini ağır artilleriyadan atəşə tutmaqla, müharibə dövründə qadağan olunmş raketlərdən istifadə etməklə Cenevrə Konvensiyanı kobud şəkildə pozub. Humanitar atəşkəs sazişindən sonra, Azərbaycanın ikinci böyük şəhəri Gəncənin, daha sonra Bərdənin mərkəzi hissəsində yerləşən çox mənzilli yaşayış binaları, Ermənistan ordsu tərəfindən raket hücumu nəticəsində darmadağın edilib. 50 nəfərdən çox nəfərdən çox mülki əhali olub, 100-dən artıq insan yaralanıb. Həlak olanların içərisində qadınların azyaşlı uşaqların olması faktdır. Bu konvensiyalara qoşulmuş Ermənistanın beynəlxalq müqavilənin tələblərini məqsədli və kobud şəkildə pozması faktı beynəlxalq ictimaiyyəti narahat etmədi.

Ölkənin iqtisadi inkişaf tempi aztəminatlı ailələrdən və Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində məcburi köçkünə çevrilmiş ailələrdən olan uşaqların, eləcə də sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların hərtərəfli inkişafı istiqamətində tədbirlərin gücləndirilməsinə imkan versə də, bu uşaqların hüququnun bərpası üçün cəmiyyətin hər bir üzvü bütün gücünü səfərbər etməlidir. Unutmamalıyıq ki, uşaqlar sadəcə, dövlətin demoqrafik göstəricisi, diqqətə və qayğıya ehtiyacı olan hissəsi deyil, milli- mənəvi dəyərlərimizin, adət-ənənələrimizin yaşadan, bu günlə gələcək arasında canlı rabitədir.

***Leyla RƏŞİD, “Xalq qəzeti”***